| | |
|---|---|
| **AKTIN NÖVÜ** | AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARLARI |
| **QƏBUL EDİLDİYİ TARİX** | 07.03.2019 |
| **QEYDİYYAT NÖMRƏSİ** | 78 |
| **ADI** | Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Müharibə veteranı, silahlı qüvvələr veteranı və əmək veteranı adlarının verilməsi qaydası və şərtləri haqqında Əsasnamənin və müvafiq vəsiqələrin nümunəsinin, eskizinin və təsvirinin təsdiq edilməsi haqqında" 1995-ci il 22 sentyabr tarixli 216 nömrəli, "Xroniki alkoqoliklərin və narkomanların ixtisaslaşdırılmış tibb müəssisələrində saxlanması rejimi, normativləri və müalicəsi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 1997-ci il 5 dekabr tarixli 135 nömrəli, "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə bağlı bəzi məsələlər haqqında" 1999-cu il 12 yanvar tarixli 5 nömrəli, "Məcburi köçkünlərin məskunlaşdırılmasını tənzimləyən bəzi qaydaların təsdiq edilməsi haqqında" 1999-cu il 24 dekabr tarixli 200 nömrəli, "İşçinin səhhətinə, sağlamlığına mənfi təsir göstərən amillər olan ağır, zərərli və təhlükəli əmək şəraitli iş yerlərində, habelə əhalinin sağlamlığının mühafizəsi məqsədi ilə yeyinti sənayesi, ictimai iaşə, səhiyyə, ticarət və bu qəbildən olan digər iş yerlərində əmək müqaviləsi bağlanılarkən işçilərin sağlamlığı haqqında tibbi arayış tələb olunan peşələrin (vəzifələrin) iş yerlərinin siyahısının təsdiq edilməsi barədə" 2000-ci il 3 yanvar tarixli 1 nömrəli, "Avtomobil yollarının layihələşdirilməsi, tikintisi, yenidən qurulması, təmiri və avtomobil yollarının qəbul edilməsi zamanı müayinənin, yoxlamanın və sınağın keçirilməsi Qaydalarının təsdiq edilməsi haqqında" 2000-ci il 7 fevral tarixli 16 nömrəli, "İstehsalatda baş verən bədbəxt hadisələrin təhqiqi və uçota alınması Qaydalarının təsdiq edilməsi haqqında" 2000-ci il 28 fevral tarixli 27 nömrəli, "Polis əməkdaşının maddi və sosial təminatları ilə bağlı Qaydaların təsdiq edilməsi haqqında" 2000-ci il 20 aprel tarixli 73 nömrəli qərarlarında dəyişikliklər edilməsi barədə |
| **RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ** | Xalq Qəzeti (Dərc olunma tarixi: 14-03-2019, Nəşr Nömrəsi: 59), Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 31-03-2019, Nəşr nömrəsi: 03, Maddə nömrəsi: 512) |
| **QÜVVƏYƏ MİNMƏ TARİXİ** | 14.03.2019 |
| **AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU** | 080.110.080 |

| | |
|---|---|
| **HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ** | **14201903070078** |
| **HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX** | **27.03.2019** |

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Müharibə veteranı, silahlı qüvvələr veteranı və əmək veteranı adlarının verilməsi qaydası və şərtləri haqqında Əsasnamənin və müvafiq vəsiqələrin nümunəsinin, eskizinin və təsvirinin təsdiq edilməsi haqqında" 1995-ci il 22 sentyabr tarixli 216 nömrəli, "Xroniki alkoqoliklərin və narkomanların ixtisaslaşdırılmış tibb müəssisələrində saxlanması rejimi, normativləri və müalicəsi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 1997-ci il 5 dekabr tarixli 135 nömrəli, "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə bağlı bəzi məsələlər haqqında" 1999-cu il 12 yanvar tarixli 5 nömrəli, "Məcburi köçkünlərin məskunlaşdırılmasını tənzimləyən bəzi qaydaların təsdiq edilməsi haqqında" 1999-cu il 24 dekabr tarixli 200 nömrəli, "İşçinin səhhətinə, sağlamlığına mənfi təsir göstərən amillər olan ağır, zərərli və təhlükəli əmək şəraitli iş yerlərində, habelə əhalinin sağlamlığının mühafizəsi məqsədi ilə yeyinti sənayesi, ictimai iaşə, səhiyyə, ticarət və bu qəbildən olan digər iş yerlərində əmək müqaviləsi bağlanılarkən işçilərin sağlamlığı haqqında tibbi arayış tələb olunan peşələrin (vəzifələrin) iş yerlərinin siyahısının təsdiq edilməsi barədə" 2000-ci il 3 yanvar tarixli 1 nömrəli, "Avtomobil yollarının layihələşdirilməsi, tikintisi, yenidən qurulması, təmiri və avtomobil yollarının qəbul edilməsi zamanı müayinənin, yoxlamanın və sınağın keçirilməsi Qaydalarının təsdiq edilməsi haqqında" 2000-ci il 7 fevral tarixli 16 nömrəli, "İstehsalatda baş verən bədbəxt hadisələrin təhqiqi və uçota alınması Qaydalarının təsdiq edilməsi haqqında" 2000-ci il 28 fevral tarixli 27 nömrəli, "Polis əməkdaşının maddi və sosial təminatları ilə bağlı Qaydaların təsdiq edilməsi haqqında" 2000-ci il 20 aprel tarixli 73 nömrəli qərarlarında dəyişikliklər edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1153-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 iyul tarixli 213 nömrəli Fərmanının 1.1.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1995-ci il 22 sentyabr tarixli 216 nömrəli Qərarı ilə təsdiq edilmiş "Müharibə veteranı, silahlı qüvvələr veteranı və əmək veteranı adlarının verilməsi qaydası və şərtləri haqqında Əsasnamə"nin "1. Müharibə veteranları" hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. ikinci, altıncı və yeddinci abzaslarında "müharibə əlili" sözləri "müharibə ilə əlaqədar əlilliyi olan şəxsin" sözləri ilə əvəz edilsin;

1.2. "Qeyd"də "əlil olmuş" sözləri "əlilliyi müəyyən edilmiş" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1997-ci il 5 dekabr tarixli 135 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997,   6, maddə 544; 2001,   1, maddə 70,   3, maddə 214; 2002,   2, maddə 100; 2007,   2, maddə 185,   8, maddə 847; 2008,   2, maddələr 123, 130; 2009,   10, maddə 857; 2015,   2, maddə 241; 2016,   3, maddə 587; 2018,   8, maddə 1814) ilə təsdiq edilmiş "Xroniki alkoqoliklərin və narkomanların ixtisaslaşdırılmış tibb müəssisələrində saxlanması rejimi, normativləri və müalicəsi haqqında Əsasnamə"nin 7.3-cü bəndinin birinci cümləsində "əlillər və qocalar üçün internat evlərdə" sözləri "ahıllar və əlilliyi olan şəxslər üçün sosial xidmət müəssisələrində" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 12 yanvar tarixli 5 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999,   1, maddə 46; 2008,   2, maddə 130; 2017,   9, maddə 1761) ilə təsdiq edilmiş "Hamiləliyin süni pozulmasına dair sosial göstərişlərin Siyahısı"nın 1-ci hissəsində "qrup əlil olması" sözləri "dərəcə əlilliyinin müəyyən edilməsi" sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 24 dekabr tarixli 200 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999,   12, maddə 765) ilə təsdiq edilmiş "Məcburi köçkünlərin yaşayış üçün yararlı olan və ya yararlı hala salınması mümkün olan yaşayış, inzibati və digər binalarda məskunlaşdırılması Qaydası"nın 3-cü hissəsində "Qarabağ əlilləri" sözləri "Qarabağ müharibəsi ilə əlaqədar əlilliyi olan şəxslər" sözləri ilə əvəz edilsin.

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 3 yanvar tarixli 1 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000,   1, maddə 72; 2010,   8, maddə 763; 2018,   10, maddə 2164) ilə təsdiq edilmiş "İşçinin səhhətinə, sağlamlığına mənfi təsir göstərən amillər olan ağır, zərərli və təhlükəli əmək şəraitli iş yerlərində, habelə əhalinin sağlamlığının mühafizəsi məqsədi ilə yeyinti sənayesi, ictimai iaşə, səhiyyə, ticarət və bu qəbildən olan digər iş yerlərində əmək müqaviləsi bağlanılarkən işçilərin sağlamlığı haqqında tibbi arayış tələb olunan peşələrin (vəzifələrin) iş yerlərinin Siyahısı"nın 28-ci hissəsində "əlil və qocalar evlərində" sözləri "ahıllar və əlilliyi olan şəxslər üçün sosial xidmət müəssisələrində" sözləri ilə əvəz edilsin.

6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 7 fevral tarixli 16 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000,   2, maddə 115; 2002,   11, maddə 675; 2003,   8, maddə 460; 2005,   1, maddə 49; 2006,   9, maddə 822; 2008,   2, maddə 130,   5, maddə 432; 2015,   5, maddə 652,   8, maddə 961; 2016,   9, maddə 1554; 2017,   8, maddə 1600; 2018,   5, maddə 1105,   10, maddə 2146,   11, maddə 2440) ilə təsdiq edilmiş "Avtomobil yollarının layihələşdirilməsi, tikintisi, yenidən qurulması və təmiri Qaydaları"nın 1.11-ci bəndində "əlillərin və sağlamlıq imkanları məhdud uşaqların" sözləri "əlilliyi olan şəxslərin" sözləri ilə əvəz edilsin.

7. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 28 fevral tarixli 27 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000,   2, maddə 123; 2005,   11, maddə 1061; 2006,   9, maddə 822; 2008,   2, maddələr 116, 130,   5, maddə 430; 2010,   3, maddə 264; 2011,   5, maddə 449; 2013,   6, maddə 723; 2015,   7, maddə 901; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 19 dekabr tarixli 541 nömrəli Qərarı) ilə təsdiq edilmiş "İstehsalatda baş verən bədbəxt hadisələrin təhqiqi və uçota alınması Qaydaları"na 1 nömrəli əlavənin (İZ forması) 14.4-cü bəndində "qrup əlillik təyin edilmişdir, sağlamlıq imkanlarının məhdudluğu" sözləri "dərəcə əlilliyi" sözləri ilə əvəz edilsin.

8. "Polis əməkdaşının maddi və sosial təminatları ilə bağlı Qaydaların təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 20 aprel tarixli 73 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000,   4 (II kitab), maddə 319; 2004,   1, maddə 51,   7, maddə 589,   11, maddə 970; 2005,   7, maddə 677; 2006,   9, maddə 830; 2007,   5, maddə 544; 2008,   2, maddə 124; 2009,   11, maddə 937; 2010,   4, maddə 359;

2011, 12, maddə 1260; 2014, 4, maddə 460, 5, maddələr 565, 593; 2016, 6, maddə 1212; 2017, 9, maddələr 1738, 1763; 2018, 10, maddə 2146) aşağıdakı dəyişikliklər edilsin:

8.1. həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - "Xidməti vəzifələrinin icrası zamanı həlak olmuş (vəfat etmiş), xəsarət (yaralanma, travma, kontuziya) almış, sağlamlığına digər zərər dəymiş polis əməkdaşına və onun ailəsinə birdəfəlik kompensasiyanın müəyyən edilməsi üçün tələb olunan sənədlər"in 2-ci hissəsinin ikinci abzasında "təyin edilməsi haqqında (əlilliyin qrupu, səbəbi və təyin edilməsi tarixini göstərməklə) arayışı" sözləri "müəyyən edilməsi haqqında qərarı" sözləri ilə əvəz edilsin;

8.2. həmin Qərarla təsdiq edilmiş 3 nömrəli əlavə – "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin polis əməkdaşına köç pulu və birdəfəlik kompensasiyaların ödənilməsi Qaydası və miqdarı haqqında"nın IV bölməsinin 3-cü hissəsinin "c" bəndində "qrup əlil" sözləri "dərəcə əlilliyi olan" sözləri ilə əvəz edilsin.

**Azərbaycan Respublikasının Baş naziri Novruz MƏMMƏDOV**

Bakı şəhəri, 7 mart 2019-cu il
78